# Sosial Mediya və Ondan İstifadə Əxlaqının Tələbənin Ailə Həyatına Təsirləri

**Müəllif**: Kəmalə Əsgərova (Azərbaycan)[1]

**Alınan Tarix**: 05/10/2016 **Qəbul Tarixi**: 28/02/2017


## Məqalənin xülasəsi

İnternet artıq həyatımızın vazgeçilməz halına gəlib. Özünü tək hissedən bir çox insan çarəni virtual mühitdə axtarır. Ancaq mütəxəssislər internet asılılğının ictimai həyatdan qopmasına səbəb olduğunu bildirir. Dostluq saytları, əyləncə saytları, oyunlar və s. Artıq bir çox insan vaxtının böyük hissəsini kompüter qarşısında keçirir. İnternet vasitəsilə olan evliliklərdə aldatmalara tez-tez rast gəlinir. Belə ki, artıq bir çox evli cütlüklərin eyni evdə iki kompüteri var. Qadın ayrı bir kompüter, kişi ayrı bir kompüterdə virtual mühitdə vaxt keçirir. Yaxud mobil versiyalar ilə internetə bağlanmalar daha sürətli və asan olub. Amma diqqət etmək lazımdır ki, virtual aləmdən istifadə düzgün və müsbət yönə yönləndirilə bilər. Bu sahədə, dini təhsilin öz güclü rolu var. Ali İmran surəsində buyurulduğu kimi, dini qorumaq və islam maarifini yaymaq üçün "sürətli atlardan" istifadə etməyin əhəmiyyətini vurğulamaqla, Qurani-kərim bir növ, sanki, bu günümüzdəki sürətli və daha üstün olan media vasitələrindən bəhrələnərək, dini maarifin yayılmasına diqqət çəkir. Belə ki, virtual təhsil və maarifləndirmə vasitəsilə, istər elmi cəhətdən, istər əxlaqi aspekdən və istərsə də ailələlərin möhkənlənməsindəki fikri-mənəvi yönləndirmə-qidalandırma baxımından yüksək rol oynaya bilər. Bu haqda məqalədə geniş məlumat və araşdırma verilib.


**Açar Sözlər**: Əxlaqının, Tələbənin, Sosial Mediya, Həyatına Təsirləri

---

1. İslam Araşdırmaları Fakültəsi, Magistr, Əl-Mustafa Virtual Universiteti, Qum, iran, kmal.sgrova.68@mail.ru

## Giriş

İnternet artıq həyatımızın vazgeçilməz halına gəlib. Özünü tək hissedən bir çox insan çarəni virtual mühitdə axtarır. Ancaq mütəxəssislər internet asılılğının ictimai həyatdan qopmasına səbəb olduğunu bildirir. Dostluq saytları, əyləncə saytları, oyunlar və s. Artıq bir çox insan vaxtının böyük hissəsini kompüter qarşısında keçirir.

İnternet vasitəsilə olan evliliklərdə aldatmalara tez-tez rast gəlinir. Belə ki, artıq bir çox evli cütlüklərin eyni evdə iki kompüteri var. Qadın ayrı bir kompüter, kişi ayrı bir kompüterdə virtual mühitdə vaxt keçirir. Yaxud mobil versiyalar ilə internetə bağlanmalar daha sürətli və asan olub.

Amma diqqət etmək lazımdır ki, virtual aləmdən istifadə düzgün və müsbət yönə yönləndirilə bilər. Bu sahədə, dini təhsilin öz güclü rolu var. Ali İmran surəsində buyurulduğu kimi, dini qorumaq və islam maarifini yaymaq üçün "sürətli atlardan" istifadə etməyin əhəmiyyətini vurğulamaqla, Qurani-kərim bir növ, sanki, bu günümüzdəki sürətli və daha üstün olan media vasitələrindən bəhrələnərək, dini maarifin yayılmasına diqqət çəkir.

Belə ki, virtual təhsil və maarifləndirmə vasitəsilə, istər elmi cəhətdən, istər əxlaqi aspekdən və istərsə də ailələrin möhkənlənməsindəki fikri-mənəvi yönləndirmə-qidalandırma baxımından yüksək rol oynaya bilər. Bu haqda məqalədə geniş məlumat və araşdırma verilib.

## Sosial Mediya və Ondan Istifadə Əxlaqının Ailəyə Təsiri

Əvvəllər boşanmaların sayı ciddi səbəblərdən olurdu amma son dövrlərdə bəzi gülünc səbəblərdən də ailələrin boşanması hallarına rast gəlirik. Son dövrlər diqqətinizə çatdırım ki, bir çox hallarda bir-birini xəyanətdə ittiham edirlər. Bu xəyanətin də əsaslı sübutu və dəlili yoxdur.

Kişi və yaxud qadın olmasından asılı olmasına baxmayaraq, digər tərəfi internetdə, sosial şəbəkələrdə, sosial mediada hər hansı bir şəxslərlə yazışmasını və yaxud virtual olaraq münasibətdə olduğunu əsas gətirib və bu da ona xəyanət etməsi fikrinə gəlir ki, sonda boşanmaya səbəb olur.

Cütlüklərin bir-birinə, yaxud övladlarına ayırdığı vaxt sosial şəbəkələrə ayrılan vaxtdan daha az olur. Bu da münasibətlərdə uçuruma gətirib çıxarır.

Bir çox evli cütlüklər evində danışmaq əvəzinə artıq internetlə ünsiyyət qurur. Ər-arvaddan biri internet başında vaxt keçirib əylənir, yoldaşı isə təkliyin verdiyi təsirdən psixoloji problemlər yaşayır. Sosial heç bir şeyi paylaşmayan cütlüklər zamanla bir-birilərindən uzaqlaşmağa başlayır və boşanmalar artır. Əlaqədəki uzaqlaşmalar həyəcan və qayğıları da artırır. Virtual mühitdə xəyanət, ya da problemlə əlaqədar şübhələr cütlərin bir-birlərinə olan etibarlarını da zədələyir. Bu vəziyyətdə depressiya riski artır.

Kompüterdən istifadə edən insanların ayrı-ayrı sosial şəbəkələrdə "dövr etməsi", dostluq və tanışlıqlar şəbəkəsi isə artıq gündəlik normaya çevrilməkdədir. Amma bəlkə heç birimiz təsəvvür eləmirik ki, ilk baxışdan çox cəlbedici, dostlarla bol görünən bu virtual dünya real həyatımızda müxtəlif problemlərə yol açır.

Sosial şəbəkə" termini elmi leksikona 1954-cü ildə ingilis sosioloq Barns tərəfindən daxil edilib. Tərifə görə, sosial şəbəkə sosial obyektlərdən (birlik, sosial qrup, insan) ibarət olan qovşaqları birləşdirən sosial strukturdur. İnternetdə sosial şəbəkə interaktiv, çoxlu istifadəçisi olan saytdır. İlk sosial şəbəkənin yaranması ötən əsrin 90-cı illərinin ortalarına təsadüf edir.

Bu Odnoklassniki.ru-nun sələfi hesab edilən classmates.com idi. 1999-cu ildə yaradılan Livejournal, 2003-cü ildə meydana çıxan MySpace də öz növbəsində xeyli populyarlıq qazandı. Hazırda sosial şəbəkələr içərisində ən populyarı 2004-cü ildə yaradılmış Facebook hesab edilir. 2006-cı ildə Rusiyada yaradılan Odnoklassniki və V kontakte- də xeyli populyardır.

2011-ci il fevralın 1-nə olan məlumata əsasən, bu ilin yanvar ayı ərzində Facebook sosial şəbəkəsində qeydə alınmış Azərbaycan istifadəçilərinin sayı 12,4 faiz və ya 38,2 min nəfər artaraq 312 720 nəfərə çatıb. Azərbaycan əhalisinin 3,7 faizi və ölkədə mövcud internet istifadəçilərinin 8,4 faizi Facebook-dan yararlanır. Bu isə o deməkdir ki, Azərbaycan vətəndaşlarının hər 27 nəfərindən biri Facebook istifadəçisidir.

Sözügedən şəbəkədən Azərbaycanda istifadə edənlərin 50 faizi 18-24 yaş qrupuna, 26 faizi 25-34 yaş qrupuna, 9 faizi 16-17 yaş qrupuna, 6 faizi 13-15 və 35-44 yaş qruplarına, 2 faizi 45-54 yaş qrupuna, 1 faizi isə 56-64 və 65-dən yuxarı yaş qruplarına aiddir. Azərbaycanda Facebook-dan istifadə edənlərin 63 faizi kişilərdir.

Hazırda Azərbaycan Fecebook şəbəkəsində istifadəçilərin sayına görə Latviya, Qazaxıstan, Belarus, Moldova, Ermənistan, Özbəkistan, Qırğızıstan, Türkmənistan, və Tacikistanı qabaqlayaraq 94-cü yeri tutur. Rusiya bu siyahıda 3 663 900 istifadəçi ilə 29-cu yerdə qərarlaşıb.

Qeyd edək ki, Facebook sosial şəbəkəsinin istifadəçilərinin ümumi sayı 618 517 020-yə çatıb. Sosial şəbəkələrdən istifadə ailədaxili münasibətlərə ləkə gətirir Azərbaycan Milli Elmlər Akademiyasının İnformasiya Texnologiyaları İnstitutunun direktoru Rasim Əliquliyev bildirib ki, sosial şəbəkələrin meydana gəlməsi XXI əsrin

ən böyük inqilablarından biri olmaqla yanaşı, bir sıra problemlər də yaradıb: "Təkcə Facebook sosial şəbəkəsinin 500 milyondan artıq "sakini" var. Elə bil yeni bir internet dünya, yeni bir internet ölkə yaranıb, insanlar da bu ölkənin vətəndaşlarına çevrilib. Bu "vətəndaşlar" bir-birinə qarşı istənilən münasibəti göstərə bilərlər. Amma bu, real münasibətlərdən fərqli olaraq, bir qədər hüquqdan kənar münasibətlərdir.

İnsan burada abstrakt olan bir azadlıq mühitinə düşür. Amma o azadlıq təhlükəli azadlıqdır. Ona görə ki, burda tənzimləyici mexanizmlər yoxdur. Çünki XXI əsrin internetinin yeni dəyərləri hələ formalaşmayıb.

Ənənəvi, mental dəyərlərə söykənən ailə münasibətlərinə sosial şəbəkələrin gəlməsi ailənin daxilində olan münasibətlərə ləkə gətirir. Baxırsan ki, qadın sosial şəbəkədə olur, özünün marağında olan insanları tapır, ər burda öz marağında olan insanları tapır, qız burda tapır, oğul orda tapır. Ailə məkan kimi qalır, amma daxilində olan dəyərlərə turşu düşdüyü üçün onları dağıtmağa başlayır. Ailə daxilində kiçikdən böyüyə, böyükdən kiçiyə olan münasibətlər istiqamətini dəyişir.

Ailə üzvlərinin hər biri sosial şəbəkələrin subyektlərinə çevrilir, bununla da ailənin daxilində olan struktur dağılmağa başlayır. Ailə daha əvvəlki ailə olmur, milli mənəvi dəyərlərin daşıyıcısı olmaq funksiyasını get-gedə itirməyə başlayır. Ailədə olan hər bir insan artıq özünü azad subyekt kimi hiss edir. Bu da, əlbəttə ki, mental dəyərlərə, ölkənin böyük qanunlarına ziddir.

Ailə institutu yeni bir forma alır. Sosial şəbəkələrin gələcəkdə cəmiyyətə vəd etdiyi münasibətlər bundan ibarətdir". Sosial şəbəkə boşanmaya da səbəb olur. Yaxud da bu, ailədə münaqişə yaradıb.

## Sosial Medianın Ailədə Müsbət Cəhətləri

İnternet aləmi virtual birdünyadır. Bu dünyanın hədd-hüdudu nə də sərhədi var, sərhədsiz bir dünyadır. Amma bununla belə danılmaz bir həqiqətdir. İnternet insane həyatında çox böyük təsirə malikdir, ola bilsin bu təsir mənfi yaxud müsbət olsun. Çünki bu insanın internetdən necə istifadə etməsinə bağlıdı. Necə deyiblər: Su çox incə və zərif bir şeydir amma çox içsən bədənə zərəri var.

İnternet də özü-özlüyündə çox böyük məlumatlarla dolu bir mediadır.İstədiyin bir çox şey haqda məlumat əldə edəbilərsən. Lakin təbiidir ki internetdən bu cür istifadə edənlər, sui istifadə edənlərə nisbət çox azdır. Bu isə yeni kəşf yox yeni bir bəla növünə çevrilir. Birçox ailələr dağılır, oğul ataya ağ olur, qız anasına qışqırır, həyat yoldaşı ərindən gizli social şəbəkələrdə başqa oğlanlarla danışır, ər də arvadından geri qalmayıb iş yerində danışır.

Internetin faydalı tərəflərinidə bir neçə ünvandan nəzərinizə çatdırmaq istərdik. Məlum olduğu kimi internetin zərərli təfləri danılmazdır, amma buna baxmayaraq faydalı tərəfləridə danılmazdır. Belə ki, insanların bir çox işlərinin rahatlanmasına səbəb olub. Tədqiqatçıların işlərini çox asanlaşdırıb.

1. İnternet nəhəng bir kitabxanadır: Ağla gələn hər mövzuda araşdırma edə bilər, qaynaqlar, kitablar, məqalələr tapa bilərsiniz.
2. İnternet bir media vasitəsidir: Qəzetlər, jurnallar, yazarlar, internet xəbər saytları, son dəqiq xəbərləri əlinizin altındadır. Hətta radio dinləyə bilər, TV də izləyə bilərsiniz. Başqa medialardan bir fərqi burasındadır ki, istifadəçilərininsayının 50 milyona çatmasına radio üçün 38 il, televiziya üçün 13 il, internet üçün isə 4 il vaxt kifayət edib.

3. İnternet virtual bir bankdır: İnternet bankçılığı nəqd pul çəkmək və yatırtmaq xaricində az qala haradasa bütün bankçılıq əməliyyatlarını reallaşdıra bilərsiniz.
4. İnternet virtual bir dövlətdir: Dövlət saytları üzərindən bir çox rəsmi əməliyyat artıq internet üzərindən reallaşdırıla bilməkdədir. Məsələn, qanun pozuntusu cəzası ödəmək, məlumat əldə etmək, imtahan müraciəti etmək, uşağınızın qeydlərini öyrənməkv.s.
5. İnternet virtual bir mağazadır: Alver saytları vasitəsilə ağılınıza gələbiləcək az qala hər cür əşya və ya vəsait satın ala bilərsiniz.
6. İnternet bir paylaşma vasitəsidir: Öz fərdi saytınızı (blogunuzu) bir neçə dəqiqədə meydana gətirə bilər, yazı, şəkil, fayl kimi paylaşmaq istədiyiniz hər şeyi dünya səviyyəsindən nəşr edə bilərsiniz. Bunları etmək üçün sayt açmaq şərt deyil, forumları, ictimai şəbəkələri və ya bunlara bənzər paylaşma saytlarını da bu məqsədlə istifadə edə bilərsiniz.
7. İnternet bir əyləncə vasitəsidir: Musiqi , film, video, karikatura, oyun, tv, radio və.s.

## Sosial Medianın Ailədə Mənfi Təsirləri

Internet aləmi virtual bir dünyadır. Bu dünyanın nə hədd-hüdudu nə də sərhəddi var, sərhədsiz bir dünyadır. Amma bununla belə danılmaz bir həqiqətdir. İnternet insan həyatında çox böyük təsirə malikdir, ola bilsin bu təsir mənfi yaxud müsbət olsun. Çünki bu insanın internetdən necə istifadə etməsinə bağlıdı. Necə deyiblər: Su çox incə və zərif bir şeydir amma çox içsən bədənə zərəri var.

İnternet də özü-özlüyündə çox böyük məlumatlarla dolu bir mediadır. İstədiyin bir çox şey haqda məlumat əldə edə bilərsən. Lakin təbiidir ki internetdən bu cür istifadə edənlər, sui istifadə edənlərə nisbət çox azdır. Bu isə yeni kəşf yox yeni bir bəla növünə çevrilir. Bir çox ailələr dağılır, oğul ataya ağ olur, qız anasına qışqırır, həyat yoldaşı ərindən gizli sosial şəbəkələrdə başqa oğlanlarla danışır, ər də arvadından geri qalmayıb iş yerində danışır.

## İnternetin Zərərləri

- **Çatlaşma**

İnternetin insana çox mühüm təsir qoymasının ən mühüm səbəbi çatdır. Demək olar ki, internetin mənfi təsirlərindən danışdıqda əsas və ən mühümlərindən biri çatlaşmaqdır.

Təbiidir ki, çatlaşmanı əgər tənqid edir və onun mənfi təsirlərə malik olduğunu deyiriksə, bu çatlaşmadan mənfi yolda istifadə edənlər üçündür. Bir çox insanlar var uzaqda olan dostları, qohumları yaxud ailə üzvləri ilə çat vasitəsi ilə görüntülü yaxud yazılı surətdə əlaqə saxlayırlar.

Amma məsələ burasındadır ki, adətən çata daxil olanların əksəriyyəti yaxşı niyyətli deyil. Xüsusən də cavan oğlanlar, onlar əsasən çata əyləncə üçün daxil olurlar. Və təbii ki, bu əyləncə başqa oğlanlarla deyil ova düşən qızlarla olmalıdır. Amma qızlar oğlanlara nisbətən çata evlənməyə həyat yoldaşı tapmaq üçün daxil olurlar.

Çatla ehtiyatlı olmaq lazımdır. Çünki kim istəyər kiminsə ailəsinin dağılmasına səbəbkar olsun. Bunu ona görə deyirəm ki belə hadisələr az olmayıb. Çatda kiminləsə danışıb ərini evdə qoyub qaçanlar yaxud əksinə həyat yoldaşını boşayıb başqası ilə evlənənlər az olmayıb.

Diqqətli olaq! Namus məsələsi çox önəmli və toxunulmaz bir şeydir. Axirətə qalmayan və elə bu dünyada əzabı verilən bir günahdır.

Bir cavan razıdır tanımadığı bir qızla saatlara çatlaşsın və həyatda ən mühüm dəyərə malik olan vaxtını xərcləsin və məlum deyil sonu necə olacaq. Bəzən məlum olur ki, əslində qız deyil oğlanla danışırmış ya qızın ailəsi varmış, yaxud da hər hansısa başqa bir səbəb üzündən ayrılırlar. Amma bu cavan razı deyil ki, 24 saatı ona bəxş edən Allaha bir neçə dəqiqəsini xərcləsin və Onun böyüklüyü önündə səcdə etsin.

Əlinə bir kitab alıb yeni bir şey oxusun və elmini artırsın. Maraqlıdır belə insanlara namaz deyəndə deyirlər vaxtım yoxdur, alındıra bilmirəm. Bax bu cürdür insanın xasiyyəti.

- Çatlaşmanın iki ailəyə gətirdiyi bəla:

Qadın, 36 yaş: "Bir neçə ildir ki, evliyəm. Yoldaşım axşam saat 6-da evə gəlir, kompüterin arxasına keçir və çatda söhbətə başlayır. Heç bir qadınla ciddi mənada söhbət etmədiyini söyləsə də, çata ayıracaq vaxtı hər gün bir az da artırır".

Kişi, 40 yaş: "Həyat yoldaşıma marağım ölüb. Buna görə bir ildən artıqdır çatda tanış olduğum bir qadınla söhbət edirəm. Onunla bütün dərdlərimi, problemlərimi rahat müzakirə edirəm. Elədiyimin səhv olduğunu bilsəm də, bunun qarşısını ala bilmirəm".

Sosial-şəbəkədə çatlaşma səbəbi ilə bir gənc qadının həyatı faciə ilə nəticələndi. Bu hadisə belə baş vermişdir. 20 yaşı tamam olmuş bir qız ailə həyatı qurur. Bir müddət həyat yoldaşı ilə birlikdə olduqdan sonra ər ruzi qazanmaq üçün Rusiyaya gedir. Artıq xanım da 5 aylıq hamilə idi.

Bu xanım diqqətsizlikdən bir nəfərlə social-şəbəkədə tanış olur və onunla yazışmağa başlayır. Ancaq bir müddətdən sonra fitri vicadanı oyanır və səhv etdiyini anlayır. Anlayır ki tanımadığı şəxslə ünsiyyət qurması doğru iş deyildir. Və bu işi tərk edir. Amma bundan sonra elə ki telefonuna mesaj gəlirdi başlayırdı qorxudan əsməyə və ağlamağa. Bir sözlə psixoloji sarsıntı keçirir. Və bu səbəb olur ki qadın usagı salır və xəstəxanaya düşür.

Burada bir " dindar" xanıma başına gəkənləri nəql edir. Bu xanımda qarşı tərəfə gözəl nəsihət vermək yerinə bu qadının cəhənnəmlik olduğunu bildirir, Allahın onu bağışlamayağını deyir. Bu cahil "dindar" xanımın dedikləri səbəb olur ki bu qadın nəticədə özün asıb öldürür.

- **Porno və Əxlaqsız Saytlar**

Porno və əxlaqsız saytalar internetin çox acınacaqlı və mənfi yönlərindəndir. Bu saytalara nəinki nəzarət olunmur bəlkə internetdə ən yaxşı surətdə himayə belə olunur. Hazırda internetdə minlərlə deyil bəlkə də milyonlarla porno və əxlaqsız saytlar var. Son statistikaya əsasən internetdən ən çox gəlir əldə edən saytlar da elə porno saytlarıdır.

Bəzi şirkətlərdə aparılmış tədqiqatlara əsasən kişi işçilər internetə ayırdıqları vaxtın 62%-ı porno saytlara baxmaqla keçirirlər. Belə işlərin aqibətinin necə olacağını isə özünüz təsəvvür edin. Bir unversitetin psixoloqlarının apardığı tədqiqatlarında məlum olub ki, uşaqlar adətən günortadan sonra, cavanlar və yeniyetmələr isə gecələr internetə daxil olurlar və əsasən porno və əxlaqsız saytlara gecə və gecə yarısı daxil olurlar. Eyni zamanda bu tipp insanların internetdən mənfi istifadə etməsi daha çoxdur.

Oxford unversitetinin psixoloqlarının apardığı tədqiqatlarda isə cavanların yüzdə 10%-i ən azı gündə bir dəfə porno və əxlaqsız saytalara daxil olurlar.

Kişilər əsasən iş yerlərində bu saytlara daxil olurlar və təbiidir ki, bu da ərlə-arvad arasında təsirsiz ötüşmür. Youtube-də bu saytlara baxmaq əvəzinə insan eliyə bilər əyləncəli, maraqlı, elmi, dini yaxud başqa faydalı videolara baxsın.

- **“Aslılıq” Xəstəliyi**

“Aslılıq” xəstəliyi yəni insanın bir şeyə çox bağlanması, ondan çox istifadə etməsi vaxtının çox hissəsini ona sərf etməsi və bir sözlə onsuz keçinə bilməməsidir. İnsanlarda asılılıq xəstəliyinin olması beynə narkotik və spirtli içkilər qədər dağıdıcı təsir göstərir.

Belə şəxslərin beynində emosiya, qərar qəbul etmə və özünüidarəyə nəzarət edən zonayla əlaqə yaradan sinir tellərinin məhv olduğu aşkara çıxıb.

Beləliklə də, cəmiyyətimizdə hazırda tüğyan edən laqeyidliyin əsas səbəblərindən birinin səbəbi aydınlaşıb. Bu aslılıq xəstəlik yalnız internetə aid deyil

## Aslılıq və Seriyallar

Bu aslılıq xəstəliyi bir çox şeylərdə ola bilər. Onlardan biri internetdirsə biri də televizordur. Televizor dedikda əsas məqsəd onda verilən kinolar və kinoların da başı seriyallardır və məxsusən də türk seriyalları. Belə ki, ailə üzvləri səhər duranda işlərini elə proqramlaşdırırlar ki axşam “Fatmagülün suçu nə” seriyalını qaçırmasınlar və hətta imkan etsələr özətinə bir də təkrar baxsınlar.

Maraqlıdır belə insanlar seriyala baxdıqları zaman seriyala baxma vaxtlarının heç boşa itirmirlər, çünki əgər “Fatmagül” də reklam olsa tez kanalı dəyişib başqa seriyala baxırlar. Bir sözlə kinoda reklam olsa da bunlar da reklam olmur.

Bəs seriyalın sonunda nə olur? Məlumdur ki, seriyal ketdiyi müddətdə stress hissləri, əsəb hissləri və sair başqa mənfi hisslərlə seriyal başa çatır, amma bu insan hələ o təsirin altından çıxa bilmir. Psixoloqların dediklərinə əsasən seriyalların ən zərərli anlarından biri insanda "əsəb sistemlərinin" pozulmasıdır.

Əlbəttə bu məsələnin fərdi hissəsidir. İctimai hissəsi isə ailəyə böyük zərbə vurur. Bir cümlədə qeyd edim özünüz nəticə alın. Bir seriyalda ki, sevişmə fraqmentlərinə ata bir kresloda, ana o birisi kresloda, oğul-qız isə divanda oturub bir yerdə baxırlarsa nəticə almaq elə də çətin olmur.

## Aslılıq və İnternet

İnternetdən mənfi istifadə edən insanlarda yaranmış ən böyük və ən təsirli xəstəliklərdən biri də "aslılıq" xəstəliyidir.

Uorçesters Universitetinin tədqiqatçıları "internet asılılığı pozğunluğu" olan gənclərin beynini tədqiq ediblər.

Bunun nəticəsində emosiyaya, diqqətli olma və qərar qəbul etmə prosesinə cavabdeh olan sinir uclarını birləşdirən lifin – ağ maddənin zədələnməsi aşkar edilib.

Belə ki, internet qarşısında əyləşən şəxs saatlarının necə gəlib keçdiyini hiss belə etmir. Və bunsuz bir günün deyil bir neçə saatının keçməsinə belə razı deyil. Halbuki həyatda ona həyatı, həyatın gözəlliklərini, sağlamlıq nemətini və bir çox saya gəlməyəcək nemətləri verən Allahına və onun üçün gecəsini gündüzünə qatmış ata-anasına belə o vaxtı xərcləmir. Yaxud da o vaxtın heç yarısını belə internetin geniş qabiliyyətindən istifadə edib elmi, dini və.s tədqiqatlara xərcləmir.

Bəzən şəbəkələrdə iştirak ailə zorakılığının bir elementi də ola bilər: “Mərkəzə bəzən kişilər müraciət edərək bildiriblər ki, həyat yoldaşı ona xəyanət edib.

Söhbət edərkən məlum olur ki, xanım hansısa sosial şəbəkədə olub, köhnə dostları, sinif yoldaşları ilə danışıb. Evin kişisi bunu virtual xəyanət sayıb. Həyat yoldaşının internetdə kiminləsə yazışmasını xəyanətə bir addım qəbul edib. Bəzən isə əksinə olur. Xanımlar köhnə dostları ilə sosial şəbəkələrdə yazışan həyat yoldaşlarının hərəkətini xəyanət kimi qəbul edirlər.

Bütün bunlar əvvəlcə xırda münaqişəyə, sonra isə boşanmaya səbəb olur. Maraqlıdır ki, müraciət edənlərin arasında evdar qadınlar deyil, ali təhsilli şəxslər də var. Bir həkim qadın deyir  onun həyat yoldaşıb kütləvi informasiya vasitələrinin birində çalışır. O, həyat yoldaşına çoxlu məktublar yazıldığını görüb bunu düzgün qəbul etməyib, son nəticədə də onlar boşandılar.

Son vaxtlar gənclərin arasında sosial şəbəkələrdə çərçivələrə əməl etməmək, özlərini apara bilməmək tendensiyaları artıb. Bəzən mədəniyyətsizlik, hətta tərbiyəsizlik belə edirlər. Bu, xoşagəlməz hallara gətirib çıxarır.

## Çıxış Yolları və Fürsətləri Dəyərləndirmə Metodları

Problemlərdən çıxış yolu kimi təbliğatı gücləndirmək lazımdır: “Hər bir insan bilməlidir ki, sosial şəbəkədən istəyi nədir. Bu, narkotik kimi bir şeydir. Bəzən insan bu saytlara o dərəcə bağlanır ki, bir gün bu sayta girməsə özünü çox narahat hiss edir.

İnsanları öyrətmək lazımdır ki, sosial şəbəkələrlə necə davranmaq lazımdır. Hər bir insan bilməlidir ki, internetdə nə qədər oturmalıdır. Şəbəkələrin müsbət və mənfi tərəfləri tam açıqlanmalıdır. Əgər bu, ailədə problem yaradırsa, buna əvvəlcədən fikir vermək lazımdır.

Əgər həyat yoldaşı internetdə gündən-günə daha çox vaxt keçirirsə, deməli, bu, artıq qadın və kişi üçün bir şüuraltı zəng olmalıdır.

Buna qarşı mübarizə aparmaq, tez-tez qonaq getmək, ünsiyyəti artırmaq, havaya çıxmaq lazımdır. Hələlik sosial şəbəkələrdə çox vaxt keçirmə kütləvi təhlükəyə çevrilməyib. Sosial şəbəkələrdə oturmaqdansa, tanışlıq və porno saytlarda oturmaq daha çox ailələrin dağılmasına səbəb olur. Sosial şəbəkənin əsas məqsədi ünsiyyət və dostluq qurmaqdır. Amma bizdə bu şəbəkələrdən düzgün istifadə olunmur". Sosial şəbəkələrin yaratdığı problemlər üzündən psixoloqlara müraciət edən şəxslərin sayı həddindən artıq çoxdur.

Sosial şəbəkələr cəmiyyətdə ünsiyyət yaratmaq tələbindən yaranıb: "Şəhərlərdə daş evlərin içində oturub bir-birimizlə ünsiyyət qurmuruq. Sosial şəbəkələr imkan verdi ki, insanlar sərhədsiz, kimlə istəyir ünsiyyət qursun. Belə hesab etmək olmaz ki, sosial şəbəkələr birbaşa boşanmaların sayına təsir göstərir. Sadəcə ailə üzvlərindən biri sosial şəbəkədə kiminləsə ünsiyyət qurmuş həyat yoldaşını qısqana bilər.

Amma bir şeyi başa düşməliyik ki, cütlükdə əks tərəf ünsiyyət axtarırsa, deməli, problem onun özündə deyil, əks tərəfdədir. Həmin şəxs qarşı tərəfə lazım olan ünsiyyəti verə bilmir ki, o da bunu kənarda, tanış olmayan insanda axtarır".

A.İsazadənin sözlərinə görə, sosial şəbəkələrin yaratdığı problemlər üzündən psixoloqlara müraciət edən şəxslərin sayı həddindən artıq çoxdur: "Bunların arasında hətta boşanmaya gətirən hallar da var. Şəbəkə sadəcə vəsait kimidir. Ailənin içində problem olur ki, kişi və ya qadın axşamlar internetdə yazışır. Amma internetdə cins yoxdur.

Çünki orada yazılan kişi və ya qadın adının arxasında bilinmir kim oturub, onun sifəti necədir, yaşı neçədir. İnternet cinssiz mühitdir. Ona görə internetə qısqanmaq da düzgün deyil.

Sadəcə, kimsə mənimlə ünsiyyət qurmursa, internetdə ünsiyyət qurursa, deməli, problem mənim özümdədir".

Adətən bir nəfər bütün şəbəkələrdə olur. Birindən çıxır, o birisinə girir. Bu zaman həm də gecə yuxusu ilə bağlı problem yaranır. Bütün gecəni otururlar, ünsiyyətdə olduqları insanlar gedib yatmayana qədər yatmırlar.

İnsanları sosial şəbəkələrdə bu qədər vaxt keçirməyə ünsiyyətin çatışmazlığı vadar edir. Əsasən də gənclər ünsiyyət qurmaq, əylənmək üçün istər-istəməz maddi vəsait xərcləməlidirlər. Amma internetdə oturub eyni vaxtda bir neçə dostla ünsiyyətdə olmaq mümkündür. İnsanlar bir növ öz həyatlarını sosial şəbəkələrə açıb tökürlər. Burada heç bir norma yoxdur".

A.İsazadənin sözlərinə görə, psixoloqa müraciət edənlər içərisində yeniyetmələr, xüsusən də yeniyetmə qızlar üstünlük təşkil edir: "Əsas problem yenə də ünsiyyətdir. Oğlanlar yenə harasa çıxa bilirlər. Qızlar üçün isə evdən kənar ünsiyyət bir qədər problemləşib. Əsasən də axşamlar.

Əvvəllər telefon əsas ünsiyyət vasitəsi idi, indi Facebook onu əvəz edir. Elə olub ki, ailədə əvvəlcə biri, sonra onun acığına o biri internetdə tanışlıq yaratmağa başlayıb. Sonda ikisində də bu məsələ açılıb, konflikt yaranıb, proses boşanmaya qədər gəlib çıxıb. Demirəm səbəb şəbəkədə fəaliyyət göstərmək idi, amma bu, onların arasında olan çatı daha da genişləndirdi və son damla oldu".

Din sosial şəbəkələrdə tanışlıqların əleyhinə deyil "Məşədi Dadaş" məscidinin axundu Hacı Şahin Həsənli bildirib ki, hər hansı yenilik, elmi tərəqqi dini baxımdan

müsbət qiymətləndirilir. Problem heç də sosial şəbəkələrin varlığında deyil, onlardan hansı məqsədlərlə istifadə olunmasındadır:

"İstisna eləmək olmaq ki, bəzi hallarda insanlar arasında virtual tanışlıqlar ailələrin dağılmasına səbəb ola, onların əxlaqına mənfi təsir göstərə bilir. Amma bunun günahını sosial şəbəkələrdə axtarmaq düzgün olmazdı. Ümumiyyətlə, bunun əsas günahını insanların bu və ya digər əxlaqi dəyərlərə bağlılığında görmək lazımdır. Şəbəkələrin varlığı müsbət haldır.

İnsanlar kiminləsə ünsiyyət qurmaq, tanışlıqlarını artırmaq istəyir, bu normaldır. Din də bu cür tanışlıqların əleyhinə deyil. Əsas olan ünsiyyətin mövzusudur. Bu isə sosial şəbəkələrlə yox, cəmiyyətin mənəvi durumu ilə bağlıdır". Azyaşlı uşaqların sosial şəbəkələrdə iştirakının əleyhinə olduğunu bildirən axund deyib ki, valideynlər tərəfindən bunun qarşısını almaq üçün nəzarət mexanizmləri olmalıdır: "Belə hallara qarşı mübarizə aparmaq üçün cəmiyyətin immuniteti olmalıdır. Azyaşlılar özbaşına buraxılarlarsa, bunun ciddi fəsadları ola bilər". İnsanlar sosial şəbəkələrin müsbət cəhətləri ilə yanaşı, mənfi cəhətlərini də bilməlidirlər.

"Sosial şəbəkələrin müsbət cəhəti də çoxdur. İnsanların bir-biri ilə ünsiyyət qurmasında, müəyyən məsələlərin müzakirəsində çox böyük üstünlüklər yaradır. Amma sosial şəbəkələrdən düzgün istifadə etmədikdə müəyyən problemlərə rast gəlmək olar. Xüsusən insanların aldadılması, müxtəlif cərəyanlara cəlb edilməsi mümkündür. Ən vacib məqam insanların bu sahədə maarifləndirilməsidir.

İnsanlar sosial şəbəkələrin müsbət cəhətləri ilə yanaşı, mənfi cəhətlərini də bilməlidirlər. Bilirsiniz ki, sosial şəbəkələrdə çoxlu sayda informasiya toplanır.

Bu informasiyalardan pis məqsədlər üçün də istifadə edilə bilər. Buna görə də sosial şəbəkələrdə işləyərkən mütləq məlumatlı olmaq lazımdır.

Orda gənclərimizi, qızlarımızı bizim istəmədiyimiz cərəyanlara cəlb etmək imkanları var. İnsanları aldadaraq, müəyyən münasibətlər quraraq onlardan sonra istifadə edə bilərlər. Bu təhlükə hər zaman var.

Buna görə də insanlar çox diqqətli olmalıdırlar. Sosial şəbəkələrə daxil olarkən insan özü haqqında məlumatlar yerləşdirir. Öz profilinizi özü yaradır. Sonra həmin informasiyalar onun əksinə istifadə oluna bilər". Bir daha internet asılılığının fəsadları barədə... İnternet asılılığı insanlarda bir sıra fiziki və psixoloji fəsadların yaranmasına səbəb olur. Bu isə həm onların özləri, həm də cəmiyyət üçün arzuolunmaz haldır.

Mütəxəssislərin qənaətincə, internet asılılığının əsas psixoloji fəsadları bunlardır:

- Kompyuter arxasında özünü yaxşı hiss etmə və eyforiyaya qapanma,
- Kompyuterdən ayrılmağın probleme çevrilməsi;
- Kompyuter arxasında keçirilən vaxtın tədricən artması,
- Ailəyə, yaxınlara və dostlara qarşı etinasızlıq,
- Kompyuterdən kənarda olarkən mənəvi boşluğun, depressiyanın, əsəb gərginliyinin yaranması,
- Öz fəaliyyəti haqqında işdə müdiriyyətə, evdə isə ailə üzvlərinə yalanlar uydurma,
- İş və ya təhsillə bağlı problemlərin aranması.

İnternetdə uzun müddət vaxt keçirmə karpal kanalı sindromu (əl əzələlərinin uzun müddət gərilməsi nəticəsində yaranan problem), gözlərdə quruluq, miqren tipli baş ağrıları, bel ağrıları, qida rejiminin pozulması,

şəxsi gigiyenaya qarşı etinasızlıq, yuxusuzluq kimi fiziki fəsadlar da yaradır.

Sosial şəbəkələr insanların həyatında öz mövqeyini dərinləşdirdikcə insanlar real ünsiyyətdən uzaqlaşırlar və sosial şəbəkədə daha çox ünsiyyətdə olurlar. Səmimiyyət isə daha da zəifləyir. Amma bunda tam olaraq sosial şəbəkələri də günahlandırmaq düzgün olmazdı.

Axı bu sosial şəbəkələrin xeyir də var. Bir-birindən uzaqda yaşayan insanlar da əlaqə yarada bilir. Sosial şəbəkələr, əksinə, neçə-neçə insanları ünsiyyətə cəlb edə bilir.

Sosial şəbəkələrdən tamamilə imtina etmək də doğru olmazdı. Bütövlükdə bu, zamanın tələbidir və bunu heç vaxt ləğv edə bilmərik. Amma onu demək önəmlidir ki, həddən artıq vaxt aparır. Ümumiyyətlə, sosial şəbəkələrdə maksimum bir, ya iki saat oturmaq olar. Ondan artıq oturmaq düzgün deyil.

Şəbəkələrin ailələrdə münaqişə yaratması halları da artıb. Ailələrdə xəyanət hallarının artmasında da sosial şəbəkələrin rolu böyükdür. Bəzən də sosial şəbəkələrdə qurulan ünsiyyət xəyanət kimi dəyərləndirilərək boşanmalara səbəb olur.

Ancaq sosial şəbəkələr tənha insanların həyatında danılmaz müsbət rolu oynayır. Bəzən şəbəkələrdə qurulan münasibətlər bu insanların tənhalığına son qoyur və ya onlar ünsiyyətə girdikləri üçün özlərini psixoloji baxımdan rahat hiss edirlər. Ona görə də bu şəbəkələrilazımsız kimi dəyərləndirmək olmaz. Sadəcə məsələyə daha açıq gözlə və çərçivədən çıxmamaq şərti ilə yanaşmaq lazımdır .

Bu gün çoxları ”Facebook"dan necə istifadə etməyi bilmir. Sosial şəbəkədən çat kimi istifadə edənlərin sayı daha çoxdur. İnkişaf etmiş ölkələrə isə sosial şəbəkələr müzakirə, diskussiya yeridir.

Hesab edirəm ki, vəziyyət getdikcə dəyişəcək və şəbəkələr sosial mövzuların diskussiya yeri olacaq.

Sosial şəbəkələrin ailələrə mənfi təsirinə gəldikdə isə bu fikirlərlə razı deyiləm. Bu məsələni ümumiləşdirmənin əleyhinəyəm. Buna fərdi şəkildə yanaşmaq lazımdır. Real həyatda da ailədə xəyanətlər olur. İnternet olmasa belə, bunu istəyən insan niyyətini reallaşdırır.

Hesab edirəm ki, sosial şəbəkələr təhlükəsiz, effektiv, əlçatımlı olmalıdır. Ümumilikdə isə sosial şəbəkələrin insan həyatında müsbət rolu danılmazdır. Sosial şəbəkələr ölkənin təbliğatında mühüm rol oynaya bilər. Ona görə də, bu inkişafdan kənarda qalmaq məntiqsiz olar. Hər şeydən artıq istifadə fəsad verdiyi kimi, internetə də aludə olmaq düzgün deyil. Bu həm də onların səhhəti üçün yolverilməz haldır .

Sosial şəbəkələr insanın çox vaxtını alr. Biz bura sərf etdiyimiz vaxtı daha səmərəli keçirə bilərik. Məsələn, bizə əziz olan insarla ünsiyyətə vaxt ayırmış ola bilərik, maraqlı bir kitab mütaliə edə bilərik. Bu zamanı virtual təhsilə də ayıra bilərik, idmanla məşşğul ola bilərik, çünki idmanın verdiyi sağlamlığı bizə sosial şəbəkələr verə bilməz. Audiokitabları dinləyə bilərik internetlə bu da bizim bizim dünyagörüşümüzü artırmışş olacaq və s.

Araşdırmaların nəticəsi göstərir ki, sosial şəbəkələrin sayəsində insanlar daha qısanc, daha paxıl, Özlərinə əminlikləri azalıb. Bundan başa sosial şəbəkələr səbəb olur ki, insan özü haqqında tez-tez pis fikrə düşməsinə səbəb olar. Buna bir neçə səbəb ola bilər. Siz status yazırsız və heç kim onu like etmir , bu da səbəb olur məyus olmağınıza.

Mark Zükerberq üçün siz sadəcə onun nəhəng məlumatlar bazasında mövcud bir rəqəmsiniz. Sizin vəzifəniz reklam elanları izləmək, oyunlara pul xərcləmək, və varlıları daha da varlı etməkdir.

Əslində sizə internetdə nə olursa olsun bu heç kimi maraqlandırmır.

## Nəticə

Quran, hər şey kimi insanoğlunun da cüt yaradıldığından danışır. Bu da Allahın bir ayəsi, eləcə də mütləq qüdrətinin sübutu və dəlilidir. Qadın və kişi deyə iki fərqli reallıq olduğuna görə, 'Dəblə ayaqlaşıram!' deyərək qadın-kişi eyniliyindən söz edə bilmərik.

Çünki əsas olan bəşəri xüsusiyyətləri bir tərəfə qoysaq görərik ki, onların birində olan bəzi xüsusiyyətlər digərində yoxdur; kişinin qadından, qadının kişidən bəzi üstün tərəfləri vardır. Kişi və qadın, fərqli yaradılışları ilə insan həqiqətini tamamlayırlar. İlahi iradə "insan"ın bu 'iki' cütün "bir"ləşməsi ilə meydana gəlməsi istiqamətində təcəlli etmişdir.

Kişi kişiliyini, qadın da qadınlığını bildiyi zaman; yəni, heç kim o birinin əlindəkinə göz dikmədiyi, hər kəs öz rolunu oynadığı zaman həyat daha xoşbəxt, zövcələr daha hüzurlu olacaqlar. Bununla birlikdə, "qol gücü" kişidə olduğundan, fədakarlıq da ona düşür.

Təəssüf ki, əksər hallarda kişilər bu fədakarlığı göstərə bilmədiklərinə görə şərtlər hər zaman qadının əleyhinə olur; qadın tarix boyunca bioloji fərqliliyi, gücsüzlüyü, heyz halı və s. səbəblərə görə xor görülmüş, əzilmişdir. Dini, siyasi, iqtisadi; yəni bütün "güc"ü əlində tutan kişilər; lətafəti, cazibə və gözəlliyinə görə qadın üzərində lazım olduğundan çox dayanmış, bəzən onu özündən qorumaq, bəzən isə özünü onun "fitnə"sindən qorumaq məqsədi ilə cəmiyyətdən kənarlaşdırmışdır.

Qurana görə ideal bir qadının əsas altı özəlliyi var; Allaha təslimiyyət, iman, itaət, tövbə, ibadət və məşəqqətlərə sinə gərməyi bacarmaq (bu qənaətkarlığı da ehtiva edir).

Bir qadın üçün ideal ər; Allaha könüldən bağlı olub, Ona təslim olan, ibadət edən, günahında israr etməyən (tövbəkar), namuslu bir mömindir. Çünki Allah Qurani Kərimdə cənnətlik möminlərin keyfiyyətlərini sayarkən bu söylədiklərimizi vurğulamışdır.[1]

Bu keyfiyyətləri daşıyan qadın və kişi tərəfindən qurulan bir ailədə şübhəsiz ki, eyni keyfiyyətlərə sahib insanlar yetişəcək. Gələcək həyat yoldaşını sadəcə malına-mülkünə, gücünə-qüvvətinə, nüfuzuna, gözəllik və yaraşığına görə seçən bir qadın ya da kişi çox keçmədən həyatını özünə zindan etdiyini anlayacaq. Çünki Dünyanın nə zəngini bitər, nə də gözəli...

Ailəni quran qadın və kişidirsə onları bir yerdə tutan nigahdır. Yəni evli cütlərin bir-birilərini mənimsəməsi; sağlam bir şəkildə sözləşməsi və bunu üçüncü şəxslərə duyurub qanuniləşdirməsidir.

Nigah sayəsində cütlər üç mənəvi rabitə ilə bir-birinə bağlanmış olur; belə ki, bir-birinə ər və arvad qədər "yaxın" olan başqa iki insan təsəvvür etmək mümkün deyil. (Maraqlıdır ki, bu bağlar qopduğunda da ər-arvad qədər bir-birinə yad, yabançı, düşmən olan iki insan yoxdur!!!) Sadəcə nigah, qadınla kişini bir-birinə bağlamaz. Nə qədər yaxın olsalar da bu uzun müddətli olmaya bilər. Ailəni qoruyan ilk amil güvəndir.

Ər-arvadın bir-birinə güvənmədiyi ya da güvənlərinin azaldığı ailə gec-tez zindana çevrilir. Bugüvənsizliyin mütləq aradan qaldırılması lazımdır. Bu mövzuda əsl iş də kişiyə düşməkdədir; nə olursa olsun yuvasını qurtarmalıdır.

---

1. Muminun, 1-11

Qurani Kərimdə sözü güdən ayə[1] Quranın mütəşabih (çətin anlaşılan) ayələrindən biridir "Nüşuz"undan şübhələnilən bir qadın; döyüləcəkmi və ya ona daha gözəl örnəklərmi göstəriləcək, yoxsa evdənmi çıxarılacaq? Bu, hərəkətə görə dəyişir. Sözü gedən cəzanın qadının hansı hərəkəti qarşılığında verildiyi təsbit və təyin edilmədiyi üçün, "Hansı çağda yaşayırıq canım!" çılar, "Quran"ın cəzasının çox böyük olduğunu başırıb-çağırılar.

Halbuki baxın, "Nüşuz nədir ki buna qarşı ən son çarə olaraq döymək kimi belə ağır cəza nəzərdə tutulmuşdur?" sualına cavab axtararkən, Allahdan, eyni surənin bir başqa ayətində bu dəfə də kişinin "nüşuz"undan bəhs edildiyini görürük:[2]

Ragıb İsfahaninin ifadə etdiyi kimi, nüşuz; qadının, yoldaşından nifrət edərək gözünü başqasına dikməsi; bir başqa kişiyə könül verməsidir. Kişinin 'nüşuzu da əksinə; arvadından nifrət edib yad bir qadına könül verməsidir. Kişinin yoldaşına itaətsizlik ya ədəbsizlik etməsi mümkün olmadığı üçün bu kəlməni itaətsizlik və ya ədəbsizlik olaraq anlaya bilmərik. O halda, ölkəmizdəki namus cinayətlərini də diqqətə alaraq düşünək; belə bir şeyə qarşı ən son çarə olaraq öncədən görülən "döymək" ağırdır yoxsa yüngül?

Quranda kişi ilə qadın "bir-birinin zirehi" olaraq tanıdılır. Evliliyin ən fundamental funksiyası hər iki fərdin razı qala biləcəyi bir cinsəlliyi yaşamasıdır. Tərəflərdən biri narazı qaldığı təqdirdə ailə bağları uzun müddət davam edə bilmir. Cinsəl funksiya pozulduğu təqdirdə fiqhin təklif etdiyi yollara baş vurulmalıdır.

Bundan başqa tərəflərin; "Necə olursa olsun, axır ki, birini tapıb evlənmişik!' deyərək özlərini çarəsizliyə məhkum etmələri doğru deyil.

---

1. Nisa, 34.
2. Nisa, 128.

Ailə fərdləri düzənlərinə, təmizliklərinə diqqət yetirməli, yemək və içməkdə israf etməməli, hərəkətsiz bir həyatı seçməməlidirlər. Xülasə özlərinə diqqət yetirməli, cazibələrini itirməməyə çalışmalıdırlar. Çünki bəlli yaşa qədər fərqinə varılsa da varılmasa da ailə səadəti buna istinad edir.

Əlbətdə sadəcə cinsi razılıq hər şey demək deyil; sözü gedən ayənin davamında, yoldaşlar arasında sevgi (məhəbbət) və mərhəmətin olması də vurğulanmışdır ki, bu da qadın ilə kişi arasındakı əlaqənin tamamilə cinsəlliyə bağlana bilməyəcəyini göstərir. İnsanlar təxminən 80 il yaşayırlar; cinsəllik keçicidirsə də sevgi və mərhəmət əbədidir.

Ər-arvadın zidd strukturlarda olması qan uyğunsuzluğu yaradır. Birinin bəyəndiyini o biri bəyənməz, birinin səhv dediyinə o biri doğru deyər. O halda, ər-arvadın Quranın işığında bir elm almaları ailə səadəti baxımından əhəmiyyətlidir. Ailə hüzurunda tərbiyə/təhsil fərqinin olması da əhəmiyyətli bir faktordur; inanışı, düşüncəsi, yaşayışı bir-birindən fərqli insanların 3-4 il keçdikdən sonra bir-birlərinə dözə biləcəkləri ehtimalı çox zəifdir. Başqa sözlə maddi qan uyğunsuzluqlarında necə tədbir görülürsə, mənəvi qan uyğunsuzluğunda da eləcə tədbir görülməlidir.

Yəni ailə quracağınız insanın xarakterini, təhsilini, hətta anasını-atasını, qohumunu hələ evlənməmişdən öncə yaxşıca araşdırmanız lazımdır.

"Armud dibinə düşər", "Anasına bax qızını al", "Kişi dayıya, qız bibiyə çəkər" kimi atalar sözləri əlbəttə böyük təcrübələrin məhsuludur.

Ər və arvadın fikirlərinin bir-birilərinə uyğun olmaları (din-dil-mədəniyyət birliyi), mal, mülk və s. imkanlar baxımından da təxminən bir-birlərinə bərabər olmaları evliliyin davamında əhəmiyyətli bir faktordur.

Ər və arvad arasında birinin lehinə böyük bir "zənginlik" fərqindən söz gedərsə o zaman ailə daxilində sakitlik olmaya bilər. Əgər bu fərq qadının lehinə olarsa o zaman kişinin halı ürək ağrıdan olacaq. Ailəni sakitliyini, rahatlğını pozan amillər bunlardır:

- Kişinin ailə rəisi (başçısı) olmağı tələb edən xüsusiyyətlərdən məhrum olması .

Ailə sözündə, "öz-özünə yetə bilməyib başqasının üstündə yük olmaq" mənası vardır. Belə ki, Hz. Peyğəmbərə; "O səni "ail" olaraq tapıb da zəngin etmədimi?"

buyurularkən bu mənada istifadə edilmişdir. İndiki vaxtda bir az dəyişmiş olsa da bütün ailə fərdləri hələ də kişinin əlinə baxırlar; bunu bir az da ənənəvi anlayış belə zərurət halına gətirə bilər. Şəhərlərdə 20 yaşdakı uşaqlar belə hələ atalarından cibxərcliyi alırlar; təhsil həyatlarını başqa cür davam etdirmələri də mümkün deyil.

İstər ata olaraq, istərsə də ər olaraq kişi güclü olduğu və maddi zərurəti təmin edə bildiyi qədər "kişi"dir. Kişinin; ailəsinin dolanışığını təmin edə bilməməsi ya da "güc"süz olduğu üçün ailə üzvlərinə söz keçirə bilmədiyi təqdirdə hər başdan bir səs çıxacağı üçün o ailədə hüzur tapmaq mümkün deyil. Belə ailələrin dağılma ehtimalı böyükdür.

Əgər qadın güc və infaq baxımından kişiyə ortaq olsa o zaman vəziyyət necə olacaq?

Maddi baxımdan üstünlük olan bu bərabərlik mənəvi, hissi tərəflərdən də üstünlükdürmü? Bunu müzakirə etmək mümkündür. Belə ki, işləyən qadının şəxsi qazancının əhəmiyyətli bir qisimini ailəsinə deyil, öz "ehtiyac"larına; əyin-başına, saçına-dırnağına xərclədiyini görürük. Digər tərəfdən qadının ailə iqtisadiyyatına kömək etməsi ini tkişinin ev işlərində ona yardım etməsələb edir.

Bəzi bölgələr qadın tarlada, bağçada əri ilə bərabər, - hətta bəzi bölgələrdə kişi işsiz-gücsüz çayxanada oturarkən, - qadın tək başına işləyir. Axşam evə gəldiyində də süfrə hazırlamaq, yemək bişirmək və s. kimi işləri də yenə o etməli olur. Niyə? Çünki güc o kişidədir! Halbuki İslamiyyət, gücü deyil haqqı əsas götürür. Haqlar və vəzifələr qarşılıqlıdır; bir tərəfə həmişə haqq, o biri tərəfə həmişə vəzifə düşürsə, orada ciddi bir zülm vardır.

Nəticə olaraq bunu deyə bilərik ki, Allah Təala insan nəsilinin, iki nəfərin birləşməsi ilə davam etməsini nəzərdə tutmuşdur. "Realist" bir fitrət dini olan İslamiyyət insan təbiətinə zidd həyat tərzi olan rahibliyə icazə verməmiş, qadın- kişi əlaqələrini sağlam bir təmələ oturtmuşdur. Fədakarlıq əsaslarına söykənən ailə: razılıq, güvən, hüzur, sevgi və şəfqət deməkdir. Ailə bunun üçün qurulur. Bunlardan birinin olmadığı bir ailədə problemlər var. Hüzur və sükunət, insanların həyat yoldaşlarından razı olmalarından asılıdır.

Qadın kişinin, kişi də qadının zirehidir. Hər ikisi də özünə yaxşı baxaraq: özünü inkişaf etdirərək, israf etməyərək bu funksiyasını ən yaxşı şəkildə icra etməli, yoldaşını qorumalıdır. Ailə qurularkən həyat yoldaşları doğru seçilməli: gözəllik, yaraşıqlılıq, zənginlik kimi keçici maddi xüsusiyyətlər əsas götürülməməli, qalıcı xüsusiyyətlər əsas götürülməlidir.

Həyat quracağınız insanla aranızda fikir uyğunluğunun olub olmadığı, onunla yaşamağın mümkünlüyü araşdırılmalıdır. Saleh bir möminin xüsusiyyətləri, yaxşı bir həyat yoldaşının da xüsusiyyətləridir; namuslu, dürüst, etibarlı, öz ayaqları üzərində dayana biləcək, ailə yükünü qaldıra biləcək, anlayışlı, qənaətkar və nəzakətli insanların qurduğu ailələrdə böyük bir ehtimalla eyni xüsusiyyətləri daşıyan nəsillər yetişəcək.

Bu gün ailələrin dağılmasında sosial şəbəkələrin böyük təsiri var. Sosial şəbəkələrdən istifadənin zərərli vərdişləri daha çox gənclər ailə quranlar arasında yayılmışdır və ailələrdə problemlərə, söz-söhbətlərə səbəb olur.

Ailələrdə xəyanət hallarının artmasında da sosial şəbəkələrin rolu böyükdür. Bəzən də sosial şəbəkələrdə qurulan ünsiyyət xəyanət kimi dəyərləndirilərək boşanmalara səbəb olur. Görürsən ki gənc qadın sosial şəbəkələrin birində tanış olduğu birisi ilə 2 və 3 uşağını atıb qaçır həmən şəxslə. Amma əslində o özüdə heç bilmir özünə necə böyük pislik edir.

Çünki insan bəzən heç bir ömür bir yerdə yaşadığı yoldaşın, evladın, qonşusun tanıya bilmir. Bilmir həqiqətdə o necə bir insandır. Onda qalmışdır ki monitorun arxasında olan birisi olsun. Bundan əlavə bir qadın əgər əri ola-ola bir başqasına getsə o qadın ömürlük həmin kişiyə haram olar və dinimiz bu nigahı qəbul etməz.

Qeyd etmək lazımdır ki, internet və sosial şəbəkələrin insan həyatına təsiri qaçılmazdır. Bu təsirlərin qarşısını almaq üçün, ailələrin dağılmaması üçün internetdən və sosial şəbəkələrdən düzgün istifadə nəticəsində mümkündür.

## Mənbələr


1. **Qurani Kərim**.
2. R. Muhəmmədzadə., "**Necə Ailə Qurmalı**".
3. İmam Səccadə-ın "**Risalətul-Hüquq**" kitabının şərhi- İslamda Hüquq Nəzəriyyəsi.
4. M. Reyşəhri., "**Mizanul-Hikmət**".
5. Ə.Ə.Babazadə., "**İslamda Evlənmə və Ailə Hüququ**".